# COP29

# Dayanıqlılıq Siyasəti

**Yaşıl dünya naminə həmrəy olaq**



COP29
Baku
Azerbaijan

# COP29 Dayanıqlılıq Konsepsiyası



COP29 üçün dayanıqlılıq konsepsiyamız tədbir əməliyyatları zamanı karbon emissiyalarını minimuma endirmək, resurslardan səmərəli istifadəni artırmaq, bərpa olunan enerjini təşviq etmək və dayanıqlılıq təcrübələrinin inkişafına şərait yaratmaqla, COP29 tədbirinin ən yüksək ekoloji məsuliyyət standartlarına uyğun təşkil edilməsini və istixana effekti yaradan qaz (İXQ) emissiyalarının artmasına səbəb olmadan (iqlim təsirləri baxımından neytral) keçirilməsini təmin etməkdir.

COP29-un məqsədi tədbirin bütün aspektləri çərçivəsində dayanıqlılıq və həmrəyliyi tərənnüm etməklə, ekoloji təsirləri minimuma endirmək və ictimai iştirakı artırmaqdır.

# Dayanıqlılıq üzrə öhdəliklərimiz

## Karbon neytrallığı

Bərpa olunan enerjidən istifadə, enerji səmərəliliyi və məcburi emissiyaların kompensasiyası kimi tədbirləri həyata keçirməklə, istixana qazı (İXQ) tullantılarını azaltmaq və karbon neytrallığına nail olmaq.

## Dayanıqlılıq təcrübələrinin təşviqi

Birdəfəlik plastik qablardan istifadənin azaldılması, dayanıqlı nəqliyyat vasitələri və ekoloji baxımdan uyğun satınalma siyasətləri kimi dayanıqlılıq təcrübələrini təşviq etmək.

## Əlçatanlıq və inklüzivlik

Gənclər, qadınlar və az təmsil olunan digər qrupların cəlb edilməsinə xüsusi diqqət yetirməklə, tədbirin fiziki və sosial-iqtisadi vəziyyətindən asılı olmayaraq bütün iştirakçılar üçün əlçatan olmasını təmin etmək.

## İrs və davamlılıq

Yerli dayanıqlılıq təşəbbüslərini dəstəkləməklə, iqlim fəaliyyətini davam etdirmək üçün həm uzunmüddətli infrastruktura, həm də potensial artımına investisiya yatırmaq və tədbirin müsbət irsini təmin etmək.

## Şəffaflıq və məsuliyyət

Qərarların qəbulu prosesində şəffaflığı və qəbul edilən öhdəliklər üzrə məsuliyyəti, o cümlədən dayanıqlılıq ilə bağlı məqsədlərə dair işlərin gedişatı üzrə müntəzəm hesabatları təmin etmək.

## Əməkdaşlıq və tərəfdaşlıqlar

İqlim dəyişməsinin təsirləri ilə mübarizə və dayanıqlılığın inkişafı üçün hökumətlər, təşkilatlar, vətəndaş cəmiyyəti və özəl sektorla tərəfdaşlıq əlaqələrini gücləndirmək.

## Əməyin təhlükəsizliyi

COP29 ilə bağlı həyata keçirilən bütün fəaliyyətlər çərçivəsində sağlamlıq, əməyin təhlükəsizliyi və rifah məsələlərinə prioritet qaydada yanaşmaq.

ÖHDƏLİK

# Karbon neytrallığı

COP29-un məqsədi tədbir üzrə əməliyyatlarla bağlı məcburi İXQ emissiyalarını hesablamaq, azaltmaq və kompensasiya etməklə, karbon neytrallığına nail olmaqdır.

## Hesabla

Məqsəd birbaşa (Əhatə dairəsi 1), dolayı (Əhatə dairəsi 2) və dəyər zənciri (Əhatə dairəsi 3) emissiyalarını ehtiva edən bütün əməliyyat sahələrində COP29-un fəaliyyəti nəticəsində yaranan faktiki karbon emissiyalarını dəqiq **ölçmək,** onlara **nəzarət etmək** və bununla bağlı **hesabat** verməkdir. Bu yanaşma şəffaflığı və tədbir boyu İXQ emissiyalarının məqsədyönlü şəkildə azaldılmasını təmin edir.

## Neytrallaşdır

**Dayanıqlı nəqliyyat:** COP29 iştirakçılarının daşınması üçün ödənişsiz metro, yeni mikromobil zolaqları, elektrikli servis marşrutları və hibrid / elektrikli taksi parkı.

**Enerji səmərəliliyi:** COP29-un tədbir məkanlarında (enerji baxımından) səmərəli işıqlandırma və məişət cihazları, enerjinin idarə olunması sistemləri və müntəzəm enerji yoxlanışları.

**Bərpa olunan enerji:** COP29 tədbir məkanlarında bərpa olunan enerjidən istifadə: Hidrogenləşdirilmiş bitki yağı (HVO) və bərpa olunan enerjinin satın alınması.

## Kompensasiya et!

**Məcburi emissiyalar üçün kompensasiya:** Yüksək keyfiyyətli beynəlxalq karbon kvotalarının alınması və Azərbaycanda iqlim dəyişməsi təsirlərinin azaldılması üzrə yerli təşəbbüslərin dəstəklənməsi.

ÖHDƏLİK

# Dayanıqlı davranışın təşviqi

Biz COP29-da tədbir iştirakçıları və geniş ictimaiyyət arasında dayanıqlı davranış təcrübələrini təşviq etmək əzmindəyik.

- Sudan səmərəli istifadə
- Tullantıların çeşidlənməsi üzrə təcrübələrin tətbiqi
- Dövri iqtisadiyyatın təşviqi
- Enerjidən səmərəli istifadə
- Dayanıqlı qida seçimləri

ÖHDƏLİK

# Dayanıqlılıq təcrübələri

COP29 “tullantıların sıfır səviyyəli torpaqlanması” siyasətinə sadiqdir.

Bu siyasətin məqsədi bütün tullantıları təkrar emal, kompostlama, minimum səviyyəyə qədər azaltma və enerjiyə çevirmə üzrə təşəbbüslər çərçivəsində çeşidləməkdir.

**Tullantı növlərinin təkrar emalı, kompostlanması və minimuma endirilməsi:**

- Təkrar emala yararlı qarışıq quru tullantılar
- Ofis kağızı
- Tibbi tullantılar
- Bio-tullantılar
- Elektron tullantılar

## Dayanıqlı təchizat:

COP29 dayanıqlı mal və xidmət təchizatçılarına üstünlük verəcək.

**100%**
satın alınmış kağız məhsulları və mebellər **FTK (FSC) sertifikatına malikdir**

**60%**
tekstil məhsulu **ekoloji uyğunluq** üzrə sertifikatlaşdırılacaq

**80%-dən yuxarı**
ərzaq məhsulu yerli təchizatçılardan əldə olunacaq

Tikintidə müvəqqəti konstruksiyalara üstünlük verilir

ÖHDƏLİK

# Əlçatanlıq və inklüzivlik

COP29 çərçivəsində biz bütün iştirakçılar üçün təhlükəsiz, hörmətə əsaslanan və inklüziv mühit yaratmaq əzmindəyik. Davranış Kodeksimiz fərqli fiziki imkan və bacarıqlara, eləcə də müxtəlif mənsubiyyətə malik olan bütün iştirakçıların tədbirdə tam şəkildə iştirak edə bilmələrini təmin edir.

| | |
|---|---|
| **Hörmət** | Biz hər bir iştirakçının xoş qarşılandığı və özünü dəyərli hiss etdiyi, eləcə də müxtəlif bioqrafiya və perspektivlərə hörməti təşviq edən mədəniyyəti inkişaf etdiririk. |
| **İnklüzivlik** | COP29 bütün icmaların iştirakını fəal şəkildə təşviq edir və müxtəlif perspektivləri ehtiva etməklə yanaşı, açıq və konstruktiv dialoqu təmin edir. |
| **Əlçatanlıq** | Bütün iştirakçıların rahat istifadəsi üçün rampa, lift və köməkçi dinləmə cihazları ilə təchiz olunmuş otaqlar və xidmət avadanlıqları tam əlçatandır. |
| **Rəqəmsal əlçatanlıq** | Tədbirin bütün sessiyaları canlı yayımlanacaq və COP29 mobil tətbiqi fərqli fiziki imkan və bacarıqlara malik olan iştirakçılara yardım məqsədilə (Rəqəmsal Məzmunun Əlçatanlığı üzrə Təlimatlar çərçivəsində) tədbir materiallarına maneəsiz girişi təmin edəcəkdir. |
| **Dəstək** | İşçi heyəti və könüllülər hər bir ziyarətçiyə pozitiv və bərabər tədbir təcrübəsi təmin etmək və fərdi dəstək göstərilməsi üzrə inklüzivlik sahəsində ən yaxşı təcrübələrə əsaslanan təlim keçiblər. |

ÖHDƏLİK

# Uzunmüddətli dayanıqlılıq irsi

COP29 həm özəl, həm də dövlət sektorlarının fəaliyyətində iqlim təhsili, peşəkar təlim, eləcə də dayanıqlılıq və ESG (Ekoloji, Sosial və Korporativ İdarəetmə) təcrübələrinin inteqrasiyası sayəsində uzunmüddətli dəyişikliyi idarə etməyi hədəfləyir. Bundan əlavə, tədbirdə istifadə olunan bütün mal və materiallar üçün “təkrar istifadə” planları təmin ediləcək.

## Səriştələrin artırılması

- **“Hamı üçün İqlim Təhsili”** onlayn kursu
- Məktəblilər üçün iqlim üzrə təhsil proqramı
- COP29 Gənclər Akademiyası
- Peşəkar təlim: dayanıqlılıq təcrübələri və ESG hesabatı
- COP29 könüllüləri və işçi heyəti üçün İşçi qüvvəsinin cəlb edilməsi və dayanıqlılığı üzrə təlim
- ESG biznes transformasiyası

## Dövrilik

**Bütün mal və materiallar üçün ikinci istifadə planları:**
COP29 Azərbaycan Əməliyyat Şirkəti (ƏŞ) tədbirin keçirildiyi məkanlarda istifadə edilən mal və materiallar (tekstil, mebel, İKT avadanlığı, taxta, metal) üçün ikinci istifadə strategiyalarını qəbul edəcək və tədbirdən sonra onların təyinatının dəyişdirilməsi, bağışlanması və ya təkrar emalını təmin edəcəkdir.

**Dövrilik təşəbbüslərindən faydalanan tərəflər:**
Tədbirdən sonra istifadə olunmuş mal və materiallar məktəb, xeyriyyə təşkilatları və müxtəlif yerli icmalara təqdim olunacaq.

ÖHDƏLİK

# Şəffaflıq və hesabatlılıq

**COP29 ən yüksək şəffaflıq və məsuliyyət standartlarına əməl edir:**

- Tədbirlərin dayanıqlı idarə edilməsi üzrə **ISO 20121 standartı əsasında sertifikatlaşma.**
- Bütün işçi heyəti və iştirakçılardan COP29 çərçivəsində UNFCCC **Davranış Kodeksinə** ciddi riayət etmək, eləcə də **mənəvi və etik prinsipləri,** habelə **hörmət və məsuliyyəti** təşviq etmək tələb olunur.
- COP29 Dayanıqlılıq Hesabatının ictimaiyyətə açıqlanması.



ÖHDƏLİK

# Əməkdaşlıq və tərəfdaşlıqlar

COP29-un Yaşıl Zonası yeni tərəfdaşlıq əlaqələri və innovasiyaların inkişaf etdirilməsi üçün platforma olacaq və istər Milli Öhdəlik Proqramı çərçivəsində, istərsə də yerli dövlət qurumları, biznes assosiasiyaları, BMT və beynəlxalq qurumlarla əməkdaşlıq çərçivəsində göstərilən daha geniş səylər sayəsində Azərbaycanın fərqli biznes sahələrində dayanıqlığı  tərəfdaşlığı inkişaf etdirəcək.

## Yaşıl Zona

**COP29-da aşağıdakılar üçün nəzərdə tutulmuş xüsusi sahə**

- Tərəfdaşlıq, innovasiya və dialoq
- Medianın cəlb olunması
- Sektorlar üzrə əməkdaşlıq və COP29-un hədəfləri haqqında məlumatlılığın artırılması

## Azərbaycanda dayanıqlılıq üzrə öhdəliklər

**və biznes təcrübələrinin təşviqi**

- Milli Öhdəlik Proqramı
- Biznes assosiasiyaları, QHT-lər, BMT və digər beynəlxalq qurumlarla əməkdaşlığın inkişaf etdirilməsi

ÖHDƏLİK

# Kollektiv əməyin təhlükəsizliyi

1

İşçilərin rifahı və texniki təhlükəsizliyi

2

Məkanda sağlamlıq və əməyin təhlükəsizliyi

6
Təcili tibbi yardım maşını

7
Tibb otağı

11
Yanğınsöndürən maşınlar

# Dayanıqlılıq hədəflərimiz

## “Xalis sıfır” karbon emissiyası
Bütün İXQ emissiyaları baxımından karbon neytrallığına nail olmaq.

## Enerji
Bərpa olunan enerji mənbələrindən əldə edilən şəbəkə enerjisi. Lokal enerji təchizatı üçün hidratlaşdırılmış bitki yağından (HVO) istifadə (karbon baxımından 100% neytral).

## Tullantı
Bütün tullantıların poliqonlara aparılmadan hərtərəfli çeşidlənməsi və kompostlanması.

## İrs
Orta məktəb şagirdləri üçün iqlim üzrə təhsili proqramları. ESG-nin yerli biznes təcrübələrinə inteqrasiyası.

## Nəqliyyat
160 elektrik avtobusu, 17 km-lik mikromobil zolağı, 50% hibrid / elektrikli taksi parkı.

## Satınalma
Yalnız ekoloji bitkilərdən istifadə edən strateji təchizatçılar. Ərzaq məhsullarının 80%-nin yerli mənbələrdən əldə olunması.

## Potensialın artırılması
Bütün işçi heyəti, təchizatçılar və könüllülərin dayanıqlılıq üzrə təlim keçməsi və onlayn təlim kurslarında geniş iştirak imkanı.

## İctimaiyyətin iştirakı
COP29 tərəfindən irəli sürülən milli dayanıqlılıq təşəbbüsləri.

**Rəyiniz bizim üçün önəmlidir:**
COP29-un Dayanıqlılıq siyasəti ilə bağlı sual, şərh və ya təkliflərinizi **sustainability@cop29.az** e-poçt ünvanına göndərə bilərsiniz.
Fikirləriniz daha yaxşı fəaliyyət göstərməyimizə kömək edəcək.

**Müzakirəyə qoşulun:**
Rəsmi **#COP29Sustainability** heştəqimizdən istifadə edərək COP29 icması ilə onlayn əlaqədə qalın və qlobal dayanıqlılıq hərəkatında iştirak edin.

**Bizi izləyin:**
Tədbirlə bağlı ən son yenilik, xəbər və fəaliyyətlərdən xəbərdar olmaq üçün sosial şəbəkələrimizdə COP29-un dayanıqlılıq fəaliyyətlərini izləyin.

**Gələcəyi birlikdə quraq:**
COP29-un dayanıqlılıq səyləri ilə bağlı rəy və təklifləriniz bundan sonra da müsbət yöndə fəaliyyətimizə kömək edəcək: